## *ÜMUM PEDAQOJİ PROBLEMLƏR*

UOT 37.

***Emilya Rafiq qızı Hüseynova,***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN HƏYATI VƏ FƏALİYYƏTİ X-XI SİNİF ŞAGİRDLƏRİNDƏ FƏAL VƏTƏNDAŞLIQ MÖVQEYİNİ FORMALAŞDIRMAĞIN MƏNBƏYİ KİMİ

***Эмилия Рафиг гызы Гусейнова,***
*доктор философии по педагогике, доцент*
*Азербайджанский Государственный Педагогический Университет*

# ЖИЗНЬ И ДЕЯТЕЛЬНОСТЬ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА КАК ИСТОЧНИК ФОРМИРОВАНИЯ АКТИВНОЙ ГРАЖДАНСКОЙ ПОЗИЦИИ У УЧАЩИХСЯ X-XI КЛАССОВ

***Emilia Rafig Huseynova,***
*PhD in pedagogy, assistant professor*
*Azerbaijan State Pedagogical University*

# ACTIVITY OF THE NATIONAL LEADER HEYDAR ALIYEV AS A SOURCE OF FORMATION OF ACTIVE CIVIL POSITION AT PUPILS OF X-XI CLASSES

**Xülasə:** Yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılmasında bəzi mənbələrə müraciət etməyə ehtiyac vardır. Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti ilə şagirdlərin tanış edilməsi məktəblilərin fəal vətəndaşlıq mövqeyinə yiyələnməsinin etibarlı mənbə ola bilər.

Məqalədə bütün bu məsələlərin üzərində dayanılır. Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin müəyyən anları yada salınır.

***Açar sözlər**: lider, ümummilli lider, yuxarı sinif şagirdləri, vətəndaşlıq, vətəndaşlıq mövqeyi, fəal vətəndaş, fəal vətəndaşlıq mövqeyi*

**Резюме:** При формировании активной гражданской позиции у старшеклассников используют ряд источников. Ознакомление учащихся с жизнью и деятельностью общенационального лидера Гейдара Алиева является одним из самых надежных источников усвоения активной гражданской позиции школьников.

Статья посвящена всем этим вопросам. Автором отмечаются некоторые моменты многогранной деятельности Гейдара Алиева.

***Ключевые слова**: лидер, общенациональный лидер, старшеклассники, гражданство, гражданская позиция, активный гражданин, активная гражданская позиция*

**Summary:** When forming active citizenship among high school students, a number of sources are used. Acquaintance of students with the life and activities of national leader Heydar Aliyev is one of the most reliable sources for assimilating the active civic position of schoolchildren.

The article is devoted to all these issues. The author notes some moments of Heydar Aliyev's multifaceted activities.

***Keywords:** leader, national leader, high school students, citizenship, active citizen, active citizenship*

Şəxsiyyətin təşəkkül və inkişafında mənəvi tərbiyə üzrə aparılan işlərin özünəməxsus rolu vardır. Mənəvi tərbiyənin qarşısında bir sıra vəzifələr dayanır. Fəal həyat mövqeyinin formalaşdırılması mənəvi tərbiyənin mühüm vəzifələrindən, onun vacib komponentlərindən, tərkib hissələrindən biridir.

Ailədə, təhsil müəssisələrində məktəblilərdə, o cümlədən yuxarı sinif şagirdlərində fəal həyat mövqeyinin formalaşdırılması məqsədilə bir çox vasitələrin köməyindən istifadə olunur. Həmin vasitələr sırasında ən əhəmiyyətlisi və faydalısı Ümummilli liderimiz Heydər Əliyevin nümunəsində tərbiyəetmədir. Tədqiqatlardan, müşahidə və sorğulardan görünür ki,

Ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyi formalaşdırmağın etibarlı mənbəyidir. Hamımıza məlum olduğu kimi, ölkəmizin müstəqilliyinin təşəkkülündə və möhkəmlənməsində, beynəlxalq arenada böyük nüfuz qazanmasında, dünya birliyinin tanınmış və hörmətli üzvü olmasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Ümummilli lider məhz fəal vətəndaşlıq mövqeyinə yiyələnmək sayəsində ölkəmizin daxili və xarici siyasətində böyük nailiyyətlər və uğurlar qazanırdı. Heydər Əliyev böhranlar dövründə ölkəmizə sabitlik bəxş etdi.

Ümummilli lider həm də ona görə hörmətlə yad edilir və sevilir ki, o, mükəmməl, müstəqil demokratik dövlət quruculuğu konsepsiyasını işləyib hazırlamış və reallaşdırmışdır.

Ona görə də heç də təsadüfi deyildir ki, siyasətçilər, dövlət xadimləri Heydər Əliyevi XX əsr Azərbaycan siyasətinin ən parlaq siması və iyirmi birinci yüzilliyin müstəqillik kursunun memarı hesab edirlər.

Ulu öndər Azərbaycanda ikinci dəfə hakimiyyətə gələndə ölkəmizdə anarxiya, qarmaqarışıqlıqlar baş alıb gedirdi, nizami ordu yox idi ki, erməni qəsbkarlıqları ilə mübarizə apara bilsin. Ordunun olmaması nəticəsində torpaqlarımız düşmənlərimiz tərəfindən işğal edilmişdi.

Ümummilli lider dövlətin başına gələn kimi ilk növbədə Ermənistanla atəşkəsin bağlanmasına nail oldu və ordu quruculuğuna başladı. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları yolu ilə ədalətli və uzunmüddətli həllinə nail olmaq məqsədilə qətiyyət nümayiş etdirdi. Beləliklə, regionda sülh və sabitlik bərpa edildi. Bütün bunlar onun uzaqgörənliyinin nəticəsi idi.

Heydər Əliyev istedadlı idarəçiliyi sayəsində sərvətlərimizdən, o cümlədən neftdən ölkəmizin mənafeyi naminə istifadə edilməsinə nail oldu, beynəlxalq müqavilələr imzaladı, ölkəyə valyuta axınını təmin etdi.

Azərbaycan Respublikasının Konstitusiyası yeni redaksiyada, müstəqil ölkəmizin Əsas qanunu kimi meydana gəldi. Ulu öndər Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının əsasını qoydu. Avropa ilə ölkəmizin əlaqələrini yaxınlaşdırdı.

Azərbaycan Respublikasının Baş naziri N. Məmmədov yazır: "Azərbaycan dövlətçiliyin qurtuluşunun *üç* aspekti diqqət mərkəzinə gətirilir: "**Birincisi,** dövlətçilik ideyası iflasdan qurtuldu. Çünki dövlət idarəçiliyinin nə olduğunu bilməyən naşı adamlar Azərbaycan cəmiyyətində tədricən müstəqillik ideyası ilə bağlı bədbin əhval-ruhiyyə yaradırdılar. Bu məqamda siyasət səhnəsinə Heydər Əliyev çıxdı və xalqda dövlət quruculuğuna dərin inam yaratdı!

**İkincisi,** Heydər Əliyev Azərbaycan cəmiyyətini siyasi təfəkkür məhdudluğundan qurtardı.

**Üçüncüsü,** Heydər Əliyev milli ideyanı iflasdan qurtardı. Milli ideya hər bir cəmiyyət üçün mayakdır, onu gələcəyə aparan əsas qüvvədir. O, yalnız cəmiyyət özünün vahid məqsədini müəyyənləşdirdikdə real məzmun kəsb edir. Milli ideya heç zaman boş yerdə yaranmır. Onun konkret prinsipləri olmalıdır. Heydər Əliyev milli ideyanı konkret ideoloji konseptdə – azərbaycançılıqda ifadə etdi. Azərbaycançılıq ideologiyasına müasir dövlət quruculuğu tələblərinə uyğun yeni məzmun çalarları verdi. Burada vətənsevərlik, vətənpərvərlik və milli dəyərlərin qorunması müasirlik və demokratik cəmiyyətin formalaşması prinsipləri ilə vəhdət təşkil etdi. Bu aspektdə milli ideya ənənə ilə müasirliyin, milli ilə beynəlmiləlin sintezi kimi özünü göstərə bildi. Bütün bunlar isə dövlətçilik şüurunun inkişaf etdirilməsi fonunda konkret məzmun kəsb edə bilər" (1).

Heydər Əliyev ölkəmizin iqtisadi inkişafına şərait yaradan iri həcmli xarici sərmayələrin cəlb olunmasını təmin edirdi. Bu isə, milyonlarla azərbaycanlının maddi rifah halını yaxşılaşdırmış və respublikamızın XXI əsrə müasir dövlət kimi daxil olmasına imkan vermişdir.

Ulu öndər ölkəmizin xarici siyasətini xüsusilə diqqət mərkəzində saxlayır, uzaqgörən diplomat, müdrik dövlət xadimim kimi beynəlxalq aləmdə uğurlu addımlar atırdı.

Sabiq və müasir dövlət başçılarının əksəriyyəti Heydər Əliyevin həyatı, şəxsiyyəti və

fəaliyyəti haqqında qiymətli fikirlər söyləmişlər. Onların bəzilərini diqqət mərkəzinə gətirək.

Amerika Birləşmiş Ştatlarının sabiq prezidenti Corc Buş deyirdi: "Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır".

Ulu öndərlə bağlı Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin də səmimi fikirləri vardır: "Uzun illər ərzində Heydər Əlirza oğlu Əliyevin səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur".

Fransa Respublikasının sabiq prezidenti Jak Şirakın düzgün qənaətinə görə, "Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, müdrikliyini və qətiyyətini yüksək qiymətləndirdim".

Roma papası II İohan Pavel deyirdi: **"**Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm".

Ulu öndərin xarici siyasət strategiyası hansı mühüm aspektlərlə səciyyələndirilə bilər?

Cənab N. Məmmədov Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş xarici siyasət strategiyasının *üç* aspektinə də öz münasibətini aşağıdakı şəkildə bildirmişdir. Diqqət yetirək:

"**Birincisi,** Heydər Əliyev dövrün çağırışlarına cavab verən xarici siyasi strategiyanı müəyyən etdi.

**İkincisi,** bu kurs ölkəmizi əhatə edən geosiyasi reallığı dəqiqliklə nəzərə alırdı. ... İlk növbədə regionun nüfuzlu dövlətləri olan Rusiya, Türkiyə və İran istiqamətində səmərəli və obyektiv reallığı nəzərə alan kurs müəyyənləşdirilməli idi. Bunların fonunda Dağlıq Qarabağla bağlı süni olaraq yaradılmış münaqişənin xarici siyasət kursundakı yeri və rolu təyin edilməli idi. Həmin faktorları Heydər Əliyev böyük ustalıqla diqqətə aldı və onları zamanın tələblərinə uyğunlaşdırdı.

**Üçüncüsü,** Ulu öndər xarici siyasət strategiyasını hazırlayarkən xalqımızın zəngin dövlətçilik tarixinin başlıca məqamlarını zərgər dəqiqliyi ilə nəzərə ala bildi. Bu, müasir mərhələdə xarici siyasətdə olduqca mühüm məqamı əks etdirir. ...Müasir Azərbaycan dövlətçiliyi tarixində xarici siyasətin mükəmməl konsepsiyasının başlıca prinsiplərinin formalaşdırılması imkanı meydana gəldi (1).

Ümummilli liderimiz Azərbaycan təhsilinin təkmilləşdirilməsi, dünya təhsil sisteminə inteqrasiya olunması sahəsinə də qayğı göstərirdi ("Mən 1969-cu ildə respublikanın rəhbəri seçiləndən sonrakı fəaliyyətimin, şübhəsiz ki, bütün sahələrini qiymətləndirərək, Azərbaycanda məktəbin, orta, ali təhsilin, texniki peşə təhsilinin inkişaf etməsini öz fəaliyyətimin əsas hissəsi hesab etmişəm, bununla ciddi məşğul olmuşam"), hər bir şəxsin elmi biliklərə, geniş dünyagörüşünə, dərin savada, yüksək vətənpərvərlik hissinə və mədəniyyətə malik olmasını, həmin sahələrdə məqsədyönlü işlərin görülməsini təhsil müəssisələrinin üzərinə mühüm vəzifə kimi qoyurdu.

Heydər Əliyev təhsildə cəmiyyətdə şərəfli yeri olan müəllim amilinə diqqəti yönəldir, müəllim şəxsiyyətini, onun şəxsi və peşə keyfiyyətlərini pedaqoji prosesinin səmərəli qurulmasında əhəmiyyətli hesab edirdi. Ulu öndərin sözləridir: "Hər bir vicdanlı adam, Vətəninə, xalqına bağlı olan hər bir adam, qədirbilən adam müəllimini həmişə qəlbində saxlayır, onu daim hörmətlə yad edir. Müəllim adı şərəfli addır, müəllim adı yüksək addır. İndi biz nə qədər çətin bir dövrdə yaşasaq da, müəllim adını daha yüksəklərə qaldırmalıyıq" (2, 116).

Heydər Əliyevin həmişə müəllimlərə hörmətli münasibəti olmuş, onlara ehtiramını göstərmişdir. Ona görə də başqa insanlara da öz müəllimlərinə hörmət bəsləməyi tövsiyə edir, cəmiyyətin həyatında müəllimin rolunu daim qiymətləndirməyi məsləhət görürdü. Ümummilli liderin qənaətincə, sənə dərs deyən, uşaq vaxtlarından, gənclik çağlarından səni tərbiyə edən müəllimləri unutmaq olmaz. Ümummilli lider də hər zaman onları xatırlamış, minnətdarlıqla yad etmişdi. Bunun səbəbini həm də belə bir cəhətlə izah edərdi: "Mən bunu həm cəmiyyətdə

müəllimlərə hörməti daha da artırmaq üçün, həm də böyük bir həyat yolu keçmiş insan kimi, müəllimin cəmiyyətdə nə qədər mühüm rol oynadığını qeyd etmək üçün deyirəm. Müəllim olmasa, heç birimiz cəmiyyətdə indi tutduğumuz yeri tuta bilməzdik və bugünkü kimi fəaliyyət göstərə bilməzdik. ...1990-cı ildə çox böyük təzyiq altında idim. Vaxtilə mənimlə çiyin-çiyinə işləmiş adamlardan bir çoxu da mənimlə görüşməkdən çəkinirdi. Lakin sevib hörmət bəslədiyim müəllimlər mənə olan ehtiramlarını saxlamışdılar" (3, 94).

Ulu öndər həm Azərbaycanda, həm də Rusiyada və digər müttəfiq respublikalarda təhsil sisteminin təkmilləşdirilməsi sahəsində böyük işlər görmüşdü. O, 1982-ci ilin dekabr ayında SSRİ Nazirlər Sovetinin birinci müavini kimi fəaliyyətə başladıqdan sonra həmin zamanlarda mövcud olan SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinə, Maarif Nazirliyinə və Texniki Peşə Təhsili Komitəsinə bilavasitə rəhbərliyi və nəzarəti də həyata keçirirdi. 1983-1984-cü illərdə SSRİ üzrə məktəb islahatı ilə bağlı xüsusi komissiya yaradıldı, Heydər Əliyev bu komissiyanın sədri oldu. Tezliklə məktəb islahatı hazırlandı, 1984-cü ildə SSRİ Ali Sovetinin sessiyasında bu məsələ müzakirə edildi. Sessiyada məktəb islahatı ilə bağlı Heydər Əliyevin məruzəsi dinlənildi. Daha sonralar məktəb islahatının həyata keçirilməsi ilə məqsədi ilə bəzi qanunlar və qərarlar qəbul olundu.

Ulu öndər Azərbaycan tarixinin və ədəbiyyatının öyrənilməsini, milli-mənəvi dəyərlərimiz, vətənpərvərlik ruhunda gənc nəslin tərbiyə almasını, onlarda fəal həyat və fəal vətəndaşlıq mövqeyinin formalaşdırılmasını vacib hesab edirdi. Ümummilli lider deyirdi: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir. Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik" (4).

Ümummilli liderimiz Heydər Əliyev xeyirxah, vətənpərvər, yaradıcı, öz millətini dərin məhəbbətlə sevən, həyatının hər anı xalqının taleyinə bağlı olan dahi insan idi. Gündəlik həyat və fəaliyyətimizin hər anında bu böyük şəxsiyyəti anır, onun nəcib və uzaqgörən əməllərinin nəticələrini görürük.

Ulu öndər elə ürək sahibi idi ki, hətta vaxtilə, o, hakimiyyətdə olmadığı vaxtlarda ona dönük çıxmış şəxslərə qarşı da kin bəsləməzdi, onları bağışlayardı. Bu xüsusda deyirdi: "Mən rica edirəm, kiçik hissiyyatı kənara qoymaq vaxtıdır, xırda dedi-qodunu kənara qoymaq lazımdır, bunların vaxtı deyil. Əgər kimsə, nə vaxtsa mənə qarşı düzgün münasibət bəsləməyibsə, nəsə edibsə, inanın ki, mən onların hamısını çoxdan bağışlamışam".

Prof. İ. Aliyev və dos. A. Əsədov yazırlar: "Heydər Əliyev ədalətli dövlət başçısı idi. Özü ədalətli olduğu üçün hadisələrə də bu kontekstdən yanaşmağı bacarırdı. O, sərt olmağı bacarırdı, insanları səhvlərinə görə cəzalandırırdı, ancaq heç vaxt ədalətsiz qərar qəbul etmirdi. Onun cəzası vicdan və ədalət kateqoriyalarının həmişə, hər yerdə və hər bir şəraitdə prinsipial qələbəsini təmin etmək kimi nəcib və sosial-mənəvi missiyaya hesablanmışdı. Bunlar Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrlərdə açıq-aşkar hiss edilirdi. Ulu öndərin öz sözləri ilə desək: "Dövlət inamsızlıq üzərində qurula bilər, ədalətsizlik üzərində yox" (5).

Ayrı-ayrı dərslərdə, sinifdənxaric tədbirlər zamanı yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyi formalaşdırılarkən Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bir mənbə kimi faydalanmaq məsləhətdir.

**Problemin aktuallığı.** X-XI sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılmasında bir sıra mənbələrə müraciət edilir. Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti barədə şagirdlərə məlumat veilməsi məktəblilərə fəal vətəndaşlıq mövqeyi qazandırmağın mühüm mənbəyi ola bilər.

**Problemin yeniliyi.** Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti X-XI sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqda mənbə rolunu oynayır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə tədqiqatlar aparan gənc tədqiqatçılar, doktorant və dissertantlar, müəllimlər üçün faydalı ola bilər.

**Ədəbiyyat:**

1. Novruz Məmmədov. Heydər Əliyev: dahi xilaskar və dövlət qurucusu. Newtimes.az. Bakı, 2017, 12 dekabr. http://newtimes.az/az/politics/5430/

2. Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə giriş sözü. 31 avqust 1994-cü il. bax: Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 2-ci kitab. Buraxılışına məsul R. Mehdiyev, H. Orucov. Bakı: Azərnəşr, 1997.

3. Təhsil işçilərinin bir qrupu ilə görüşdə giriş və yekun sözü. Prezident sarayı 12 fevral 1995-ci il.

4. Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı. 13.08.2001.
http://azertag.az/xeber/AZARBAYCAN_PREZIDENTI_HEYDAR_ALIYEVIN_BAYANATI-816078

5. İ. Aliyev, A. Əsədov. Heydər Əliyev elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşırdı. "Xalq qəzeti", 2009, 12 dekabr

**E-mail:** emilya.huseynova95@gmail.com
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov**,
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub**: 27.12.2018